# Ələt azad iqtisadi zonasının yaradılması istiqamətində işlər sürətləndirilir

**Sentyabrın 23-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclası keçirildi.**

Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov iclası açaraq bildirdi ki, gündəliyə "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi daxil edilib.

Valeh Ələsgərov dəyişikliyin mahiyyəti barədə məlumat verdi. Bildirildi ki, qanuna "Keçid müddəaları" adlı yeni 32-ci maddənin əlavə edilməsi təklif olunur. Yeni maddəyə görə, bu qanunda nəzərdə tutulmuş azad zona səlahiyyətli qurumu və onun idarə heyəti formalaşana qədər azad zona səlahiyyətli qurumunun və idarə heyətinin hüquqlarını



və vəzifələrini müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılan müvəqqəti idarəetmə qurumu həyata keçirir.

Qeyd edildi ki, azad iqtisadi zona ərazisində lazımi təşkilati məsələləri həll etmək üçün müvafiq səlahiyyətli qurum olmalıdır. Bu qurum infrastrukturun yaradılması, kadrların hazırlanması, layihələrin həyata keçirilməsi, ətraf mühit problemlərinin həllinə və digər zəruri işlərin yerinə yetirilməsinə xidmət edəcək. Nəzərdə tutulan düzəliş Ələt azad iqtisadi zonasının fəaliyyətinin daha səmərəli olmasını və daha da sürətləndirilməsini nəzərdə tutur.

İclasda çıxış edən deputatlar Vahid Əhmədov, Rüfət Quliyev, Əli Məsimli, Cavid Qurbanov gündəlikdəki məsələ barədə fikirlərini açıqladılar. Bildirildi ki, ümumiyyətlə, azad iqtisadi zonanın fəaliyyətə başlaması iqtisadiyyatın inkişafına, o cümlədən ümumi daxili məhsulun artmasına müsbət təsir göstərəcək, neftdən kənar sahələrin ixrac imkanlarını genişləndirəcək.

Müzakirələrin yekununda "Ələt azad iqtisadi zonası haqqında" qanunda dəyişiklik edilməsi barədə" sənəd Milli Məclisin plenar iclasına tövsiyə olundu.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

**Azərbaycan.- 2019.- 24 sentyabr.- S. 2.**